# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanının 6.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə” nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 avqust 2022-ci il

№ 286

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2022-ci il 6 avqust
tarixli 286 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin

# NÜMUNƏVİ NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Bu Nümunəvi Nizamnamə "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin (bundan sonra – Müəssisə) fəaliyyətinin tənzimlənməsi üçün onların nizamnamələrinin hazırlanması və dövlət qeydiyyatından keçirilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Nümunəvi Nizamnamə dövlət və bələdiyyə tərəfindən yaradılan Müəssisənin fərdi nizamnaməsinin hazırlanmasında əsas hesab olunur.

1.3. Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin fərdi nizamnamələri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə uyğun olaraq hazırlanır.

1.4. Müəssisə çətin həyat şəraitində yaşayan şəxslərə (ailələrə) (bundan sonra – şəxslər) evdə (səyyar), yarımstasionar, stasionar və sosial məsləhət xidmətlərini göstərən publik hüquqi şəxsdir.

1.5. Bu Nümunəvi Nizamnamənin 1.6-cı bəndi və Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət adından icra hakimiyyəti orqanının (dövlət adından yaradılan publik hüquqi şəxsin) tabeliyində Müəssisə Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, həmin icra hakimiyyəti orqanı (dövlət adından yaradılan publik hüquqi şəxs) tərəfindən yaradılır.

1.6. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi

şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tabeliyində Müəssisə Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – Nazirlik) tərəfindən yaradılır.

1.7. Bələdiyyənin tabeliyində Müəssisə müvafiq bələdiyyə tərəfindən yaradılır.

1.8. Müəssisənin müstəqil balansı, əmlakı, bank hesabı, üzərində tabe olduğu dövlət orqanının (qurumunun) və ya bələdiyyənin adı, həmçinin öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.9. Müəssisə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Mülki Məcəlləsini, "Publik hüquqi şəxslər haqqında", "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, bu Nümunəvi Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin digər qərarlarını, həmçinin sərəncamlarını, digər normativ hüquqi aktları, habelə tabe olduğu dövlət orqanının (qurumunun) və ya bələdiyyənin əmr və sərəncamlarını və öz nizamnaməsini rəhbər tutur.

1.10. Müəssisə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, tabe olduğu dövlət orqanının (qurumunun) və ya bələdiyyənin razılığı ilə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.11. Qanuna uyğun olaraq Müəssisənin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Müəssisə məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.12. Müəssisə ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Müəssisə Nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.13. Müəssisənin Nizamnaməsində onun adı və yerləşdiyi ünvan göstərilir.

## 2. Müəssisənin fəaliyyət istiqamətləri

2.1. Müəssisənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Müəssisəyə stasionar formada qəbul edilmiş şəxslərə "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan sosial xidmətləri göstərmək, onlarla sosial iş aparmaq və onların sosial reabilitasiyasını təşkil etmək, həmçinin Müəssisədə onların fiziki vəziyyətinə və səhhətinə uyğun həyat şəraiti yaratmaq, onlara qulluq göstərilməsini təşkil etmək;

2.1.2. özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən ahıllara və əlilliyi olan şəxslərə, o cümlədən çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanlara gündüz və ya gecə vaxtlarında sosial-məişət, tibbi, mədəni və başqa xidmətlər göstərmək, onların asudə vaxtını səmərəli təşkil etmək və onların əmək fəaliyyətinə cəlb olunması üçün tədbirlər görmək;

2.1.3. insan alveri qurbanlarının, məişət zorakılığından zərərçəkmiş şəxslərin, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin, ictimai təhlükəli xəstəliyə tutulmasına görə həyat fəaliyyəti məhdudlaşmış şəxslərin, müəyyən yaşayış yeri olmayanların cəmiyyətdən təcrid olunmasına səbəb olan halların qarşısını almaq, onların sosial adaptasiyası məqsədilə sosial-məişət, tibbi, mədəni və başqa xidmətlər, sosial-məsləhət yardımı göstərmək, sosial reabilitasiya tədbirlərini həyata keçirmək və onları əmək fəaliyyətinə cəlb etmək;

2.1.4. şəxslərin peşə seçiminə kömək göstərmək, xüsusi təlim proqramları və peşə hazırlığı əsasında əvvəlki peşələrində əmək funksiyalarının bərpa edilməsinə və ya yeni peşəyə yiyələnmələrinə yönəlmiş tədbirlər həyata keçirmək;

2.1.5. Müəssisənin Nizamnaməsində müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Müəssisənin vəzifələri və hüquqları

3.1. Bu Nümunəvi Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Müəssisənin vəzifələri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisə-lərinə yerləşdirilməsi Qaydası"na uyğun olaraq şəxsləri Müəssisəyə qəbul etmək;

3.1.2. keyfiyyətli sosial xidmətin həyata keçirilməsini təmin etmək;

3.1.3. Müəssisəyə qəbul edilmiş şəxslərə sosial xidmətin göstərilməsini və onların sosial reabilitasiyasını təşkil etmək məqsədilə hər bir şəxs üçün fərdi plan hazırlamaq və həmin plan əsasında onların reabilitasiyasını həyata keçirmək;

3.1.4. Müəssisəyə yarımstasionar formada qəbul edilmiş şəxsləri hər gün 1 (bir) dəfə, stasionar formada qəbul edilmiş şəxsləri isə hər gün 3 (üç) dəfə olmaqla keyfiyyətli qida ilə təmin etmək;

3.1.5. Müəssisəyə stasionar formada qəbul edilmiş şəxsləri geyim, ayaqqabı və yataq dəstləri ilə təmin etmək;

3.1.6. Müəssisəyə qəbul edilmiş şəxslərin mədəni-asudə vaxtını səmərəli təşkil etmək;

3.1.7. Müəssisədə ilkin tibbi yardımı təşkil etmək, tibbi məsləhətlər vermək, həmçinin ehtiyacı olan şəxslərin müalicə-profilaktika müəssisələrinə yerləşdirilməsini təmin etmək;

3.1.8. Müəssisəyə qəbul edilmiş şəxslərin hüquq və mənafelərinin müdafiəsini təmin etmək;

3.1.9. fəaliyyəti üzrə statistik məlumatları və təhlilləri hazırlayıb müvafiq olaraq tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təqdim etmək;

3.1.10. Müəssisənin göstərdiyi xidmətlərin monitorinqini aparmaq, təkmilləşdirilməsi istiqamətində tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təkliflər vermək;

3.1.11. Müəssisədə sanitariya-gigiyena və əksepidemik rejimin norma və qaydalarına riayət olunmasını təmin etmək;

3.1.12. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.13. Müəssisəyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrant və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.14. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun həyata keçirmək;

3.1.15. əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi, o cümlədən Müəssisəyə qəbul edilmiş şəxslərə birbaşa xidmət göstərən əməkdaşlar üçün etik davranış qaydalarının və xidməti fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı mütəmadi təlimlər təşkil etmək;

3.1.16. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görmək;

3.1.17. Müəssisənin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.18. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.19. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Müəssisənin aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.2. fəaliyyət istiqamətləri üzrə dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.3. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, simpoziumlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.4. stasionar formada qəbul edilmiş şəxslərə Müəssisənin yerləşdiyi ərazi üzrə tibb müəssisəsi tərəfindən ilkin tibbi xidmətin göstərilməsi üçün zəruri tədbirlər görmək;

3.2.5. şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətlərin zəmanət verilmiş həcmi istisna olmaqla, müqavilə əsasında ödənişli xidmətlər, o cümlədən səyyar xidmətlər göstərmək;

3.2.6. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

3.2.7. əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün tədbirlər görmək;

3.2.8. Müəssisədə daxili intizam qaydalarını müəyyən etmək;

3.2.9. Müəssisənin təsisçisinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.10. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. Müəssisənin idarə olunması

4.1. Müəssisə öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir, aşkarlıq və şəffaflıq prinsiplərini əsas tutmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununa, bu Nümunəvi Nizamnaməyə və öz nizamnaməsinə uyğun olaraq idarə edilir.

4.2. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, Müəssisənin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə müəyyən edilmiş səlahiyyətləri aşağıdakılardır:

4.2.1. Müəssisənin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.2.2. idarəetmə orqanlarının yaradılması;

4.2.3. Müəssisənin direktorunun və direktorun müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.4. inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqlənməsi;

4.2.5. Müəssisənin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və əməkhaqlarının (o cümlədən əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiqi;

4.2.6. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onların yaradılmasında iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

4.2.7. Müəssisənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə Müəssisənin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına razılıq verilməsi;

4.2.8. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsinə əsasən Müəssisənin mənfəətinin onun nizamnaməsində nəzərdə tutulmayan məqsədlər üçün müvafiq olaraq dövlət büdcəsinə köçürülməsi ilə bağlı qərarın qəbul edilməsi;

4.2.9. Müəssisənin yenidən təşkili və ləğv edilməsi.

4.3. Müəssisənin fəaliyyətinə cari rəhbərliyi bu Nümunəvi Nizamnamənin 4.2.3-cü yarımbəndinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilən direktor həyata keçirir. Direktorun müavini

(müavinləri) bu Nümunəvi Nizamnamənin 4.2.3-cü yarımbəndinə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir. Direktorun müavinlərinin sayı bu Nümunəvi Nizamnamənin 4.2.2-ci yarımbəndinə uyğun olaraq müəyyən edilir.

4.4. Direktor müvəqqəti olmadıqda, onun səlahiyyətlərini direktorun müavinlərindən biri, onlar olmadıqda isə direktorun müəyyən etdiyi digər vəzifəli şəxs həyata keçirir.

4.5. Direktor aşağıdakı vəzifələri yerinə yetirir:

4.5.1. Müəssisənin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.5.2. təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təkliflər verir və sənədlər (o cümlədən Müəssisənin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim edir;

4.5.3.Müəssisənin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət edir;

4.5.4. Müəssisənin struktur bölmələrinin əsasnaməsini təsdiq edir, onların fəaliyyətinə nəzarəti təşkil edir və işinin əlaqələndirilməsini təmin edir;

4.5.5. Müəssisənin iş planını təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir;

4.5.6. cari və operativ məsələlər barədə tabe olduğu dövlət orqanını (qurumunu) və ya bələdiyyəni məlumatlandırır;

4.5.7. bu Nümunəvi Nizamnamənin 3.1.13-cu yarımbəndində nəzərdə tutulan vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.5.8. Müəssisənin Nizamnaməsində müəyyən edilmiş hallar istisna olmaqla Müəssisənin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərar qəbul edir;

4.5.9. bu Nümunəvi Nizamnamənin 4.2.5-ci yarımbəndinə uyğun müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Müəssisənin ştat cədvəlini və xərclər smetası ilə bağlı təkliflərini tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təqdim edir;

4.5.10. Müəssisənin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.5.11. Müəssisənin fəaliyyət istiqamətləri ilə bağlı komissiyalar və işçi qruplar yaradır;

4.5.12. Müəssisənin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncamlar və əmrlər verir;

4.5.13. Müəssisənin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.5.14. özünün və Müəssisənin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.5.15. şəxslərin Müəssisəyə qəbulunu və Müəssisəni tərk etməsini təmin edir;

4.5.16. Müəssisənin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), həmçinin daxili intizam qaydalarını və işçilərin vəzifə təlimatlarını Müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə ilə razılaşdırmaqla təsdiq edir;

4.5.17. Müəssisənin fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi ilə bağlı tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təkliflər verir;

4.5.18. Müəssisənin işçi heyətinin peşəkarlıq səviyyəsinin və ixtisaslarının artırılması üçün tədbirlər həyata keçirir;

4.5.19. Müəssisənin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.5.20. Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Müəssisənin adından əməliyyatlar aparır, müqavilələr (o cümlədən təsisçinin razılığı ilə Müəssisənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqd (xüsusi əhəmiyyətli əqd) və aidiyyəti şəxslə dəyəri müəssisənin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqd, həmçinin müstəqil 5 (beş) faizinədək hissəsini təşkil edən əqd) bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.5.21. Müəssisənin əmlakından Nizamnaməsində nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.5.22. Müəssisənin inzibati binalarının əsaslı və cari təmiri, habelə abadlıq işləri üçün müvafiq tədbirlər görür;

4.5.23. Müəssisədə yanğından mühafizə, əməyin mühafizəsi, sanitariya-gigiyena normalarına və qaydalarına riayət olunmasını təmin edir;

4.5.24. Müəssisədə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.5.25. Müəssisədə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir;

4.5.26. Müəssisənin Nizamnaməsinə uyğun olaraq onun cari fəaliyyəti ilə bağlı digər məsələləri həll edir.

4.6. Müəssisənin direktoru və onun müavini (müavinləri) Müəssisənin adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. Müəssisənin nizamnamə fondu, əmlakı və maliyyə-təsərrüfat fəaliyyəti

5.1. Müəssisənin nizamnamə fondunun məbləği (məbləğ göstərilməklə) manatdır.

5.2. Müəssisənin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilmiş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Müəssisə öz əmlakından yalnız nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Müəssisə balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləş-dirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Müəssisə qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra bu Nümunəvi Nizamnamənin 5.3-cü bəndi nəzərə alınmaqla, Müəssisənin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin fəaliyyətindən əldə edilmiş vəsait üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə təsisçi ilə razılaşdırmaqla həyata keçirir.

5.5. Müəssisədə məhsulların (malların, işlərin, xidmətlərin) qiymətləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 30 dekabr tarixli 328 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası”na 1 nömrəli və 2 nömrəli əlavələrdə müəyyənləşdirilmiş qiymətlər istisna olmaqla tənzimlənməyən qiymətlərə aiddir.

## 6. Müəssisənin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Müəssisənin fəaliyyətinə nəzarəti təsisçi, həmçinin Müəssisənin Nizamnaməsi ilə müəyyən edilmiş qaydada tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə, habelə Müəssisənin idarəetmə orqanı həyata keçirir.

6.2. Müəssisə fəaliyyətinə dair illik hesabatı müvafiq olaraq tabe olduğu dövlət orqanına (qurumuna) və ya bələdiyyəyə təqdim edir.

6.3. Müəssisədə daxili audit bölməsi yaradıldığı halda Müəssisənin tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə həmin bölmənin fəaliyyətinə nəzarət edir və fəaliyyətinə dair hesabatlar alır, habelə onun üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi barədə qərar qəbul edir.

## 7. Müəssisədə uçot və hesabat

7.1. Müəssisə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Müəssisə “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlar tərtib və təqdim edir.

7.3. Müəssisə öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün tabe olduğu dövlət orqanı (qurumu) və ya bələdiyyə kənar auditor cəlb edir.

## 8. Müəssisənin ləğvi və yenidən təşkili

8.1. Bu Nümunəvi Nizamnamənin 8.2-ci bəndi nəzərə alınmaqla, dövlət adından icra hakimiyyəti orqanının (dövlət adından

yaradılan publik hüquqi şəxsin) tabeliyində yaradılan Müəssisənin yenidən təşkilini və ləğv edilməsini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həmin icra hakimiyyəti orqanı (dövlət adından yaradılan publik hüquqi şəxs) həyata keçirir.

8.2. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, dövlət adından dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin (dövlət adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla) tabeliyindəki Müəssisənin yenidən təşkilini və ləğv edilməsini, həmin hüquqi şəxslərin təklifləri əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Nazirlik həyata keçirir.

8.3. Bələdiyyə tərəfindən yaradılmış Müəssisənin yenidən təşkilini və ləğv edilməsini həmin bələdiyyə həyata keçirir.